# RƏHİMOV CAVANŞİR İZZƏT OĞLU



Cavanşir Rəhimov 5 iyun 1973-cü ildə Qax rayonunun Qaşqaçay kəndində dünyaya gəlmişdir. Ailəsi ilə birlikdə Bakıya köçən Cavanşir Suraxanı rayonundakı 104 saylı orta məktəbi bitirdikdən sonra təhsilini texniki-peşə məktəbində davam etdirmişdir. İdman ustası idi. 1992-ci ildə hərbi xidmətə çağırılaraq Azərbaycan Hərbi Hava Qüvvələrində xidmətə başlamışdır. Hərbi vertolyotun bort atıcısı peşəsinin sirlərinə yiyələnmişdir. Cəbhə xəttinə uçuşlar zamanı Cavanşir Rəhimov özünü mahir atıcı kimi göstərmiş, sərrast atəşlə düşmənin xeyli canlı qüvvəsini məhv etmişdir. Onun sonuncu uçuşu isə əsl qəhrəmanlıq nümunəsi kimi döyüş tariximizə daxil olmuşdur. 6 avqust 1992-ci ildə döyüşçüləri xilas etmək üçün havaya yüksələn hərbi helikopter üç dəfə uçuş edərək yerdəki erməni mövqelərini atəşə tutur və buradakı erməni bölüyünü məhv edir. İki uçuş müvəffəqiyyətlə başa vurulur. Cavanşir yaralanmasına baxmayaraq, növbəti uçuşa hazır olduğunu bildirir. Komandir nə qədər təkid etsə də, onu inadından döndərə bilməyir. Vertolyot yenidən səmaya qalxdığı zaman onlar raket atəşinə məruz qalırlar. Mİ-24 vertolyotu düşmən tərəfindən vurulmuş və bu zaman Cavanşir taxıl zəmisinə düşmüşdür. Bir aydan sonra mal-qara otaran çoban Cavanşirin meyitinə rast gələrək, onu yaxınlıqdakı hərbi hissəyə aparmışdır. 1992-ci il sentyabrın 9-da Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı Fərmanı ilə Rəhimov Cavanşir İzzət oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Bakının Suraxanı rayonundakı 146 saylı orta məktəb onun adını daşıyır. Qaraçuxur qəsəbə parkında büstü qoyulmuşdur. Həmçinin haqqında“Cavanşir” adlı sənədli film də çəkilmişdir.